DÜNYA

# ABŞ Nümayəndələr Palatasından Rusiya və İrana yeni sanksiya həmləsi

1 saat öncə




ABŞ Konqresi

Avqustun 10-da ABŞ Nümayəndələr Palatası Rusiya və İrana qarşı irimiqyaslı sanksiyalar paketini irəli aparmaq üçün addım atıb. Bir neçə gün əvvəl Senat sənədi 86 lehinə, 11 əleyhinə səslə qəbul etmişdi.

Nümayəndələr Palatası əslində avqust tətilindədir. Buna baxmayaraq, hər iki partiyadan böyük bir konqresmen qrupu sözügedən sanksiya layihəsinin Nümayəndələr Palatası üçün eyniməzmunlu versiyasını təqdim edib.

Qanun layihəsi mərhum senator Lindsi Qremin adını daşıyır. Paket Rusiya banklarını, enerji gəlirlərini, oliqarxları, Kremlə bağlı "kölgə donanması"nı, sanksiyalardan yayınma şəbəkələrini hədəfə alacaq. Moskvanın Ukraynaya qarşı işğalçı müharibəsini davam

etdirməsinə kömək edən xarici hökumət və şirkətlər də bu sıradadır. Sənəd İrana qarşı uzunmüddətli sanksiyaların müddətini 2031-ci elədək uzadacaq.

## Prezidentə veriləcək səlahiyyətlər

AzadlıqRadiosunun Vaşinqton müxbiri **Aleks Raufoğlu** yazır ki, layihədə nəzərdə tutulan tariflər və Rusiya enerjisini alan ölkələrlə bağlı prezidentə veriləcək səlahiyyətlər ətrafında çətin müzakirələr gözlənilir.

Qanun layihəsində Trampa Rusiya nefti və qazını almağa davam edən və ya Moskvaya sanksiyalardan yayınmağa kömək edən ölkələrə qarşı tariflər tətbiq etmək üçün geniş səlahiyyətlər verilir.

Rusiyadan idxal olunan mallara 500 faizə qədər, Rusiya xam nefti və ya təbii qazının ən böyük alıcıları olan, Rusiyanın neft sektoruna sanksiyalardan yayınmağa yardım göstərən ölkələrdən idxal edilən mallara isə 100 faizə qədər hədəfli tariflərin tətbiqinə icazə verilir.

Merilenddən demokrat **Steni Hoyer** deyib ki, prezidentin tarif tətbiq etmək səlahiyyətinin dəqiq miqyası ilə bağlı danışıqlar davam edə bilər.

İndi əsas məsələ Senatda 86-11 səs nisbətini təmin etmiş ikipartiyalı koalisiyanı qoruyub saxlamaqdır. Bunu AzadlıqRadiosuna Nümayəndələr Palatasının müzakirələrlə tanış yüksək vəzifəliləri deyib. Layihənin tərəfdarları Senatdakı səsvermənin yaratdığı impulsdan Nümayəndələr Palatasında prosesin sürətlənməsi üçün istifadə etmək istəyirlər. Onların niyyəti həm də daha bir uzunmüddətli danışıqlara səbəb ola biləcək dəyişikliklərdən yayınmaqdır.


## Buna da bax:

ABŞ Senatı Rusiyaya qarşı 'cəhənnəm sanksiyaları' paketini qəbul etdi

OCCRP: Azərbaycan qeydiyyatlı onlarla şirkət Rusiyanın 'kölgə donanması' tankerlərini idarə edir

Senator Rik Skott: 'Putin quldurdur'


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur